musiqiçilər, hakimlər, təbiblər və s. haqqında əsərlər mövcuddur. Bu janrda özünü sınayan müəlliflərdən əs-Sirafi əsərində – qrammatiklər, İbn Culcul - həkimlər, əl-Kindi və əl-Xuşani – qazılar, əl-Cəhşiyari isə vəzirlər haqqındakı məlumatı qruplaşdırmışdır. Mühəddis, şair, ədib, müğənni və musiqiçilərə də bir neçə bioqrafik toplular həsr olunmuşdur (2, 62). Yaşayıb fəaliyyət göstərdiyi yer əsas kimi götürülərək yazılan bioqrafik əsərlər də vardır.

Bu janrda olan əsərlər həcminə görə də fərqlənirdi. Əgər əs-Sirafinin (X əsrin əvvəli) əsəri dar çərçivəni əhatə edən şəxslərə - Bəsrənin filoloqlarına həsr edilərək yazılmışsa, İbn əl-Əsakirinin (XII əsr) yüzlərlə, minlərlə şəxs haqqındakı məlumatı əhatə edən dəməşqlilərdən bəhs edən əsəri özünün çox böyük həcmi ilə fərqlənirdi. Bioqrafik əsərlər, adətən şəxslərin hər biri haqqında şablon tipli məlumat verir, sanki əsəri tərtib edərkən müəllif standart anketi doldurur (3, 242). Belə əsərlərdə şəxsiyyətin adı və ləqəbi, nə vaxt və harada doğulduğu, kimin yanında və hansı elmi öyrəndiyi, kimlərə hansı fəndən dərs dediyi, hansı yerlərə səfər etdiyi, hansı əsərləri yazdığı, dövlət qulluğunda olub-olmaması haqqında məlumat verilir. Bəzən ziyalının şerlərindən parçalar, ya da həyatından bir-iki maraqlı epizod verilir, bəzən isə xarici görünüşü və xarakteri, fərdi xüsusiyyəti qələmə alınır. Qeyd etmək lazımdır ki, məlumat ya şəxsi müşahidə vasitəsilə, ya mötəbər müəllifin əsərinə isnadla, ya hadisənin şahidi olmuş şəxsin dilindən adı verilməklə şifahi şəkildə, ya da məlumatlar isnadlarla verilirdi. Məlumatın düzgün çatdırılması üçün bu informasiyanı bir-birlərinə çatdıranların adlarının qeyd edilməsi, yəni indiki dillə deyilsə, mənbələrlə verilməsi ərəb ədəbiyyatına xas xüsusiyyətdir.

Artıq X əsrdə tarixi və bioqrafik mənbələrin birliyindən yeni əsərlər yarandı. Belə əsərlərə bioqrafik xronikalar adını vermək olar (4, 242). Bu, Cəhşiyarinin vəzirlər haqqındakı kitabı, Kindinin Misir hakimlərinin tarixi kitabı kimi əsərlər idi. Çoxşaxəli olan bioqrafik ədəbiyyat o qədər geniş intişar tapmışdı ki, hətta sülalə tarixi yazan müəlliflər belə əsərlərini sülalənin nümayəndələri olan xəlifələrin, saray əyanlarının, ədəbiyyatçıların və məmurların bioqrafiyası ilə o qədər doldururdu ki, antalogiya adlanaraq, həqiqətdə, həmin dövrün ədəbiyyat tarixi üzrə mühüm mənbəyə çevrilirdi. Abbasilərin tarixi haqqında kitab yazmış Əs-Sulinin əsəri bu qəbildən idi (5, 242). Hərhalda, o dövrdə Abbasilərin tarixi kitabı ilə şəhər tarixi kitabları və adına bioqrafik mənbələr dediyimiz kitabların arasında elə də böyük fərq yox idi. Çünki, bu dövrdə bir çox şəhərlərin tarixi bu və ya digər şəhərdən çıxmış görkəmli şəxslərin bioqrafiyası məcmuə şəlklindədir. Buna əsasən V.Bartold (6, 61) və ondan sonra O.Bolşakov (7, 138) haqlı olaraq, əs-Səmaninin istifadə etdiyi mənbələrin çoxunu bu qəbildən olan əsər hesab edərək bu əsərləri tarixi əsərlərə aid etmişlər.

Tədqiqata cəlb etdiyimiz Yaqut əl-Həməvi, əs-Səmani, əs-Siləfi, İbn Makula, İbn Nöqtə, İbn əs-Sabuni kimi bioqrafik janrda yazan müəlliflərin əsərlərinin tekstoloji təhlili belə deməyə əsas verir ki, bu əsərlər son dərəcə kompilyativ xarakter daşıyır. Buna səbəb, məlum əsərlərin redaktə və şərh olunması yolu ilə yeni əsərlərin yaradılmasına imkan verən mövcud elmi biliklərin ötürülməsi ənənəsi idi. Orta əsrlərin təlim üsuluna görə müəllim tələbəyə bilik verərkən, öyrətdiyi elmin hansı mənbəyə əsaslandığını göstərməli idi. Həm də öyrənərək isnad etdiyi əsərin istifadə olunması üçün müəlliminin yazılı "icazəsi" olmalı idi. "İcazətnamə" deyilən bu sənəd təlimin keyfiyyətli, səhih, informasiyanın ötürülməsinin adekvat olmasının qarantı kimi diplom rolunu oynayırdı. Ona görə də, müəlliflər bir-birlərindən məlumatları əxz edərək redaktə edir və o əsərlərdə olmayan mlumatları əlavə etməklə yeni əsərləri

meydana gətirirdilər. İbn Nöqtə, ondan sonra isə İbn əs-Sabuni özlərindən əvvəl, XI əsrdə yaşayıb yaratmış İbn Makulanın "Əl-Mütənif və-l-Müxtəlif" ("Oxşar və müxtəlif adlar") mövzusunda yazdığı əsərinin davamı kimi həmin mövzuda yeni əsərlər yaza bilmişlər. İbn Makula isə bu qəbildən olan yazısını özündən əvvəl yazıb yaratmış əl-Əzdi, əd-Daraqutni və Xətib Bağdadinin həmin janrındakı əsərlərini öyrənəndən sonra ortaya qoymuşdur. Müəllif özündən əvvəl yazmış alimlərdən Xətib Bağdadi, Əli ibn Ömər əd-Daraqutni və Əbdülğəni bin Səid bin əl-Əzdinin məhz bu tipdə olan əsərlərini təhlil edərək onlar haqqında öz rəyini bildirdikdən sonra öz samballı əsərini yazmağa qərar vermişdi. İbn Makula "əl-İkməl..." kitabına yazdığı müqəddimədə əsərin yazılması səbəbini belə izah edir: "Xətib Bağdadinin Əbülhəsən Əli ibn Ömər əd-Daraqutninin "əl-Mütəlif va-1-Müxtəlif" və Əbdülğəni bin Səid əl-Əzdinin "əl-Mütəlif va-1-Müxtəlif" və "Müştəbih ən-Nisbə" əsərlərinin tamamlanması kimi yazdığı "Təkmilət əl-Mütəlif va-1-Müxtəlif" əsərinə nəzər salarkən gördüm ki, Xətib onların xatırlatmadığı bəzi şeylərə üstünlük vermiş, qeyd etdiklərinin bəzilərini isə təkrarlamışdır. Onların diqqət yetirmədikləri bəzi səhvlər olduğu kimi qalmışdır. Beləliklə, mən bu janrda elə bir əsər yazmaq qərarına gəldim ki, orada həm onların kitabında olanları cəm edim, həm də onlardan fərqli olaraq qeydlərindəki səhvlər və fərqli cəhətləri haqqında susaraq, hər birinin etdikləri səhvləri düzəldim... (8, 2). O, "əl-İkməl..." əsərində bu barədə susmasına baxmayaraq, başqa bir əsərində Xətib əl-Bağdadinin "Əl-Mütənif" əsərini tənqid etmişdi. Əbü-l-Həsən Məhəmməd bin Mərzuqə görə, Xətib əl-Bağdadinin bu əsərini təhlil edən İbn Makula onu bu əsərinə görə məzəmmət etmişdi. Bu xəbər Xətibə çatmışdı. İbn Makula Xətibin yanına gələrkən o bu haqda xəbər alır. İbn Makula bunu inkar edir, heç cür boynuna almır və israr edərək deyir: "Heç ağlıma da gəlməyib. Deyirlər ki, İbn Makulanın yazdığı tənqid Xətib əl-Bağdadi ölənə qədər səssiz qalır, yalnız o vəfat edəndən sonra işıq üzü görür. İbn Makulanm Xətib Bağdadinin əsərinə yazdığı tənqidi mətn "Mustəmərru-l-Avham" ("Xəyalların davamlı olması") adlanırdı (9, 2). "əl-Mütəlif və-1-Müxtəlif " janrında yazan çoxsaylı müəlliflər arasında İbn Makulanın özünəməxsus yeri var. Qərbi Avropa və rus alimlərindən K.Brokelmanın və İ.Kraçkovski dövrün bu movzuda yazmış çoxsaylı müəllifləri arasında məhz İbn Makulanm adını xüsusi qeyd etmişlər. Onu əs-Səmaninin (1113-1167) sələfi kimi qəbul edən akademik İ.Kraçkovski İbn Makulanın "Əsmə ər-Ricəl" ("Hədis bilicilərinin adları") haqqında yazdığını vurğulamışdır (10, 315-316).

Xilafət daxilində birləşərək fəaliyyət göstərmiş, islam mədəniyyətini inkişaf etdirmiş xalqların, o cümlədən Azərbaycan xalqının mədəniyyət tarixinin öyrənilməsində rolu olan ərəbdilli bioqrafik mənbələrdən biri də Orta Asiya tarixçisi, mühəddis, ilahiyyatçı və filoloqu Əbu Səad Əbdülkərim ibn Məhəmməd əs-Səmani ət-Təmimi əl-Mərvazinin (h. 506/1113–562/1167) "Kitab əl-Ənsab" ("Nəsəblər kitabı"dır). Azərbaycanın orta əsrlərdə mədəni, elmi, əqli həyatının əks etdirilməsində rolu olan bu əsəri yüksək qiymətləndirən prof. M.Mahmudov yazırdı: "Ərəbdilli Azərbaycan mədəniyyətinin, elmi fikrinin keçdiyi inkişaf yolunu Əbu Səad əs-Səmaninin "Kitab əl-Ənsab" əsəri olmadan izləmək mümkün deyildir. Müəllif əsərin yazılma səbəbini göstərmək üçün Məhəmməd peyğəmbərin (s.a.s.) kəlamından istifadə edir. Bunun üçün dövrün sitat gətirilmə qayda-qanununa uyğun olaraq Mərvdə gəncəli ədib Əbu Hafs Ömər bin Osman bin Şüeybdən başlayaraq Əbu Hüreyrəyə (r.a.) qədər on bir isnaddan istifadə edərək yazır: Peyğəmbər (s.a.s)

demişdir: Qan qohumlarınızla bağlı nəsəblərinizi öyrənin , qohumluq bağı əhalidə məhəbbət, malda sərvət, izdə uzunömürlülükdür (11, 12).

Müsəlman Şərqində geniş yayılmış bioqrafik janra aid olan "Kitab əl-Ənsab" əsərində mənşəyini hər hansı yaşayış yerindən götürmüş az və ya çox məşhur olan şəxsiyyətin nisbəsinin (anadan olma yeri, yaşadığı yer və ya qəbilə, tayfa, həmçinin məşğuliyyət də bildirərək morfoloji olan «i» şəkilçisi vasitəsilə düzələn söz-N.Ə.) siyahısı əlifba sırası verilmişdir.

Bioqrafik əsərlər seriyasından olan "Kitab əl-Ənsab" bu səpgidə yazılmış əsər kimi elmin bu və ya digər sahələrində tanınmış 120-dən çox azərbaycanlı ziyalının bioqrafiyasını da əhatə edir. Qeyd etmək lazımdır ki, əsərdə islam sahəsində elmə yiyələnmiş, bu sahədə çalışanlar ön plana çəkilmişdir, bununla belə azərbaycanlı filoloqların bioqrafiyası da əsərdə özünə yer almışdır. Nisbəni əsas götürərək verdiyi məlumatın dəqiq olmasına çalışan müəllif ziyalının əksər hallarda ölüm tarixini, bəzən isə anadan olma tarixini də qeyd etmiş, onlara xas olan keyfiyyətləri açıqlamışdır. Ziyalıları seçərkən üstünlüyü yaxından tanıdığı, nəql etdikləri hədislərini dinlədiyi, hədisin ötürülmə zənciri kimi isnad etdiyi alimlərə verməsi məlumatında dəqiqliyi gözləmək istəyindən irəli gəlmişdir. Məlumatın əxz etdiyi mənbəni göstərməsi isə əsərin etibarlılıq dərəcəsini daha da artırır.

Orta çağ Azərbaycanın ğörkəmli şəxsiyyətləri haqqında məlumat verən ərəbdilli mənbələrdən biri də ibn əs-Sabuninin (604-608/1207-1282) «Kitab Təkmilət İkməli-l-İkməl» («İkməl»in əlavəsinin təkmilləşdirilməsi») əsəridir (12). İbn əs-Sabuninin bu əsəri İbn Makulanın «əl-İkməl» kitabına Hafiz Əbu Bəkr bin Nöqtə tərəfindən «İkmalu-l-İkmal» adıyla edilən əlavənin əlavəsidir. Əsərdə müəllif daha çox hədisçilərə (hədis söyləyənlərə-mühəddislərə) yer verir. Təsadüfü deyil ki, Xeyrəddin əz-Zirikli özünin «Əl-Ə'aləm» əsərində əs-Sabuni haqqındakı məlumatında onu məhz hədis bilicisi kimi qələmə verir. (13, 172) İbn əs-Sabuni sufi şeyxlərə də əsərində yer ayırmışdır ki, onların da arasında görkəmli azərbaycanlı sufilər yer tutur (14, 17). Hədislərlə bərabər «alim, müdərris, müfəssir (şərhçi), vəzir, ədib, yazıçı, təbib, vaiz, sufi, nəssəx (yazı üzü köçürən), mücəllid, sahibkar» və başqaları haqqında məlumatları da bu kitabda toplamışdır. Bundan əlavə, öz elmi ilə şöhrət tapmış qadınlara yer verməsi, onun əsərinin əhəmiyyətini daha da artırır. İbn əs-Sabuni əs-Səmani, Yaqut əl-Həməvi kimi özündən əvvəl yazılmış əsərləri diqqətlə öyrənərək onların toxunmadığı boşluğu doldurmağa çalışmışdır. Əgər İbn Nöqtə Əbu Həmid əl-Mosulinin atası haqqında məlumat verirsə, İbn əs-Sabuni onun özü haqqında danışır (15, 92). Bununla belə İbn əs-Sabuni Misirdə təhsil aldığı vaxt görüşdüyü azərbaycanlı ziyalılar, və ya onlar haqqında məlumat vermiş müəlliflərin məlumatnı da əsərinə əlavə etmişdir.

Tədqiq olunan bioqrafik mənbələr arasında Əbu Tahir əs-Siləfini (478/1085-576/1180) Azərbaycanla çox yaxından bağlı müəllif kimi qəbul etmək olar. Əs-Səmani, Yaqut əl-Həməvi kimi səyyah, ensiklopedik alimlərdən fərqli olaraq Əbu Tahir təkcə Cənubi Azərbaycan şəhərlərinə deyil, həmçinin Araz çayından şimala, Arran və Şirvana da səyahət etimşdir. Bununla yanaşı, əs-Siləfinin azərbaycanlılarla daha bir yaxınlığı onun ərəb dili müəlliminin Xətib Təbrizi olmasıdır. Bu hafiz şeyxin böyük nüfuzu sayəsində Misirin sahibi Fatimi xəlifəsi əz-Zahir əl-Ubeydinin vəziri əl-Adil əl-Həsən ibn əs-Sallar h. 546/1151-ci ildə İsgəndəriyyədə mədrəsə tikdirtərək, onun idarə etmək hüququnu əs-Siləfiyə vermişdir. Bu mədrəsə indi də orada

məşhurdur (16, 543). Əs-Səmani, Yaqut əl-Həməvi, İmadə-d-Din əl-Hənbəli, İbn əl-Fuvati, İbn əs-Sabuni onun əsərlərindən istifadə etmişlər.

Əs-Siləfinin Şirvana səyahət etməkdə əsas məqsədi hədis toplamaq, orada yaşayıb-yaradan hafizlər, ilahiyyatçı alimlər, mühəddislər, qarilər, vaizlərlə görüşərək onlar haqqında eşitdiklərini dəqiqləşdirmək, onların həyat və yaradıcılığı, inamı haqqında yeni məlumat əldə etmək idi. Digər tərəfdən, əs-Siləfi kimi sufi şeyx alimin buranı ziyarət etməsi Şirvanda fiqh və sufiliyin, eləcə də hədis elminin geniş yayıldığını göstərir. O dövrdə hədis elmi ən ləyaqətli elmlərdən sayılırdı (17, 74). Qeyd etmək lazımdır ki, hədislərin səhih olmasını təyin etmək baxımından isnadların böyük rolu olmuşdur. İsnad yalnız hədislərin ötürülməsi sahəsində yenilik olaraq islam dövründə istifadəyə daxil olmuşdur (18, 105). Əs-Səmani bunu obrazlı şəkildə belə ifadə etmişdir: «İsnad-imanın bir hissəsi, mömininin silahıdır; əgər onun silahı yoxdursa, o necə döyüşə bilər ?» (19, 5-8). Buna görə də bu dövrün digər alimləri kimi əs-Siləfi də haqqında məlumat topladığı şeyxlərin mötəbərliliyini təyin etmək üçün bu metoddan istifadə edir.

Beləliklə, İslamın ilk dövrlərindən hədis bilicilərinin siyahıya alınması üstünlük təşkil edir. Azərbaycan tarixinin orta əsrlər dövrünə aid bir çox mənbələrin dövrümüzədək yalnız adları gəlib çıxdığını nəzərə alsaq, bu səpgidə əsərlərin Azərbaycanın mədəni həyatının öyrənilməsində əvəzolunmaz olduğu qənaətinə gələrik.

Bu gün Azərbaycan elmi qarşısmda duran problemlərdən biri əlyazmaları müxtəlif arxiv və kitabxanalarda səpələnmiş ziyalılarımızın tapılıb üzə çıxardılaraq, onların elmi potensialının, Azərbaycanda müsəlman mədəni mühitinin formalaşmasında oynadıqları rolun araşdırılmasıdır. Həmvətənlərimizin həyat və yaradıcılıqları, onların dini baxışları, təlimləri və tədris fəaliyyətləri, müxtəlif bölgələrin alimləri ilə saxladıqları elmi əlaqələr haqqında məlumat almaq üçün ilk növbədə misilsiz əhəmiyyəti olan ərəbdilli bioqrafik mənbələrin üzə çıxarılmasına, bəzisinin isə yenidən işlənməsinə ehtiyac var. Bu mənbələrin tədqiq edilməsi ilk növbədə, ümumislam mədəniyyəti çərçivəsində öz yeri olan ziyalılarmızı ortaya çıxararaq onların mənəvi həyatımızda öz layiqli yerlərini tutmasına kömək edəcəkdir.

## ƏDƏBİYYAT


1. İbn Səad Məhəmməd bin Səad bin Məni əl-Həşimi əl-Basri. Ət-Tabaqat əl-Kubra. Beyrut: 1997, 7-ci c., 384 s.
2. Халидов А.Б. Арабские рукописи и арабская рукописная традиция. М.: 1985, 302 с.
3. Халидов А.Б. Книжная культура. / Очерки истории арабской культуры V-XV вв. М.: 1982, 438 с.
4. Yenə orada.
5. Yenə orada.
6. Бартольд В.В.Туркистан в эпоху монгольского нашествия . Соч. в 9-ти т. Том 1. М.: 1963, 760 с.
7. Большаков О.Г. Средневековый город Средней Азии. Ленинград: 1973 г., 352 с.
8. İbn Makula. Əl-İkməl fi raf ” i-1-İrtiyəb ani-l-Mütəlif və-1-Müxtəlif fi-1-Əsmə va-1-Kunə va-1-Ənsab. Beyrut: 1990, 1 c., 592 s.
9. Yenə orada.
10. Крачковский И.Ю. Избранные сочинения, т. IV, Ленинград: 1957 г., 919 с.
11. Əs-Səmani Əbu Səad Əbdülkərim ibn Məhəmməd. Əl-Ənsab. 6 cilddə. Beyrut: 1998, I c., 534 s.

12. İbn əs-Sabuni. Kitabu Təkmiləti İkməli-l-İkmal bi ibn əs-Sabuni, Naşir Mustafa Cavad, İraq, 1377/1957, 320 s.
13. Əz-Zirikli Xeyrəddin. «Əl-Ə'lam». Qahirə, 1373-78/1954-59. VI c., 2-ci nəşr.
14. İbn əs-Sabuni. Kitabu Təkmiləti İkməli-l-İkməl fi-l-Ənsab va-l-Əsmə va-l-Ləqab bi İbn əs-Sabuni. Beyrut: 1411/1990, 143 s.
15. İbn əs-Sabuni,1990, 143 s.
16. Qeys Əl-Qeys. Əl-İraniyyun fi-l-Ədəb əl-'Arabi. Ricəl ilmu-l-Hədis, c. III. Tehran: 1363, 400 s.
17. Сейидбейли М. Научно-культурная жизнь Азербайджана (второй половины XIII – начало XIV в.). Баку: 1999, 139 с.
18. Халидов А.Б. Арабские рукописи и арабская рукописная традиция. М.: 1985 г., 302 с.
19. Əs-Səmani. Ədəb əl-imla. Leyden: 1952, 634 s.


## АРАБОЯЗЫЧНЫЕ БИОГРАФИЧЕСКИЕ ИСТОЧНИКИ IX-XIII ВВ.


**Н.А.АЛИЕВА**


**РЕЗЮМЕ**


В этой статье приводится информация о различных примерах биографической литературы, которая составляет одну из обширных форм, развивающих арабскую историографию. Показано, что во времена Халифата наряду с биографией отдельных личностей, также развивались и биографические труды, в общем и целом. Имеются труды, где берётся за основу род деятельности лиц, которые занимаются сбором хадисов, религиоведы, поэты и литераторы, языковеды, духовные лица (кадий), музыканты, врачи, медики и т.д. После, произведения Ибн Макулы, ас-Силафи, ас-Самани, Ибн Ногта, Ибн ас-Сабуни и Якута Аль-Хамави, написанные в этом жанре, где включены также данные об азербайджанской интеллигенции, проходят текстологический анализ. Анализ данных произведений даёт основание считать, что они носят компилятивный характер. Показывается, что причиной этому является традиция передачи научных знаний, позволявших созданию новых произведений путём редактирования и толкования данных произведений.


## ARABIAN BIOGRAPHIC SOURCES OF IX-XIII CC.


**N.A.ALIYEVA**


**SUMMARY**


In this article gives an information about different examples of biographical literature, makes is one of large form, developing Arabic historiography. There shown, that in Caliphate times along with biography of individuals, also was developing biography works at all. There are works, where taking the line of the persons, which collect Hadises, students of religion, poets and writers, linguists, clerical persons (qadi), musicians, medics and etc. After, the works of Ibn Makula, as-Silafi, as-Samani, Ibn Nogta, Ibn as-Sabuni and Yakut Al Khamavi, written in this genre, where included the data about Azerbaijan intelligentsia, pass a textual analysis. Analyze of these works gives a reason to consider, that it have a compilation nature. There showing, that the reason for that is the tradition of science passing on, allowing creation of the new work by editing and commenting the very works.